Kütləvi idman tədbirləri çərçivəsində bu dəfəki yarışlar sağlamlıq imkanları məhdud məktəblilər arasında təşkil olunub.

Türkan qəsəbəsi 6 nömrəli Respublika xüsusi internat məktəbində futbol və basketbol idman növləri üzrə keçirilən yarışda Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli, Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi, E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi, 8 nömrəli Sanatoriya tipli və 11 nömrəli İnteqrasiya təlimli internat məktəblərinin komandaları mübarizə aparıblar.

Futbol yarışında I yeri 11 nömrəli, II yeri 4 nömrəli, III yeri 5 nömrəli, basketbol yarışında isə I yeri 6 nömrəli, II yeri 8 nömrəli, III yeri 4 nömrəli internat məktəbinin komandası tutub.

Qaliblər Təhsil Nazirliyi tərəfindən diplom və medallarla təltif olunub.